

# Tarixi məqamda milli iradənin qələbəsi

*Bir millət, iki dövlət, Azərbaycan-Türkiyə. İki qardaş ölkə arasında tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər əsasında qurulan əlaqələr inkişaf edir, getdikcə daha da möhkəmlənir, sarsılmaz birliyə, əbədi dostluğa çevrilib. Müstəqilliyinin bərpasının ilk illərində qardaş ölkə Azərbaycanın hərtərəfli inkişafında, dünya birliyinə inteqrasiyasında, siyasi-iqtisadi və elmi-mədəni maraqlarının təmin olunmasında mühüm rol oynayıb. Türkiyə-Azərbaycan münasibətlərini hər zaman yüksək dəyərləndirən, ortaq dinimizə, dilimizə, tariximizə böyük önəm verən ümummilli lider iki dövlət arasında dostluğun təməlini hələ 90-cı illərdə qoymuş, türk dövlətləri ilə əlaqələrin qurulmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən etmişdi.*

Ümummilli lider Heydər Əliyev ilə Süleyman Dəmirəlin səmimi dostluq münasibətləri xalqlarımızı daha da yaxınlaşdırmış, ölkələrimizin beynəlxalq arenalarda mövqelərini möhkəmləndirmişdir. Bu gün prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bu əlaqələri müttəfiqlik səviyyəsinə yüksəldiblər. Dövlət başçıları ortaq dəyərləri, hərtərəfli əməkdaşlığı etimad və hər iki ölkənin maraqlarına qarşılıqlı hörmət əsasında genişləndirərək beynəlxalq məsələlərdə birgə mövqe nümayiş etdirirlər ki, bu da bütün türk dünyasını əhatə edir.

Dostluğun, qardaşlığın, müttəfiqliyin ən gözəl nümunəsi olan, "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci sevincimizdir", "Bir millət, iki dövlət" fəlsəfəsi üzərində inkişaf edən Azərbaycan və Türkiyə bu gün bütün dünyanın həsəd apardığı, qibtə etdiyi birlik, həmrəylik nümayiş etdirirlər. Ortaq sivilizasiyaya malik, tarix boyu bir-birindən ayrılmayan ölkələrimiz gələcəyə birlikdə inamla addımlayır. Bu qətiyyətin, inamlı addımların arxasında isə dövlət başçılarının əldə etdikləri uğurlar dayanır. İki qardaş ölkənin birliyinin möhkəmləndirilməsi, münasibətlərin ən yüksək səviyyəyə çatdırılması liderlərə olan inamı, etimadı daha da artırır. Elə bunun göstəricisidir ki, hər iki dövlət başçısı xalq tərəfindən böyük səs çoxluğu ilə dəfələrlə ölkə rəhbəri seçiliblər. Ötən il keçirilən prezident seçkilərində Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə prezident seçilməsi Türkiyə ilə yanaşı, müstəqil Azərbaycan dövlətinin, xalqımızın sözün əsl mənasında bayramına çevrildi.

Seçkilərin birinci mərhələsində ölkəsini böyük inkişaf yoluna çıxarmış, onu dünyada güc mərkəzi, regionda söz sahibi etmiş Rəcəb Tayyib Ərdoğanın siyasi xəttini dəstəkləməsi xalqın öz liderinə olan etimadının, inamının nümayişi, eyni zamanda öz yoluna Prezident Rəcəb Tayyib Ərdoğanla davam etmək istəyinin göstəricisi idi. Seçkilərin ikinci turunda da demokratiya prinsipləri rəhbər tutularaq vətəndaşların sərbəst və müstəqil şəkildə səsvermə hüquqlarını həyata keçirmələrinə hər cür şərait yaradıldı. Seçkiqabağı təşviqat dövründə siyasi partiyalar seçicilərdən dəstək almaq üçün debatlar, mitinqlər və ictimai müzakirələr apardılar. Və bütün bunların fonunda demokratik, gərgin mübarizə şəraitində keçən ikinci turda xalq ölkəsini modernləşdirən, dünya birliyində nüfuzunu artıran Ədalət və İnkişaf Partiyasının (AKP) lideri Rəcəb Tayyib Ərdoğanı yenidən ölkə prezidenti seçdi. Tam demokratik, şəffaf şəkildə keçirilən, xalqın istəyini ehtiva edən seçkiləri saxtalaşdırmaq istəyən kənar qüvvələr, yan təsirlər xalqın iradəsini qıra bilmədi. Hesab olunur ki,



mayın 28-də türk dünyası qalib gəldi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan seçicilərin 52,18 faiz səsini qazanaraq yenidən Türkiyə prezidenti seçildi.

Uğurlu siyasəti nəticəsində sabitlik, iqtisadi artım və milli təhlükəsizliyin təmin olunmasında, eyni zamanda Türkiyənin suverenliyinin və regional maraqlarının qorunmasında güclü mövqeyi Ərdoğana seçicilərin əhəmiyyətli bir hissəsinin dəstəyini qazandırdı. Seçkilərdə Rəcəb Tayyib Ərdoğanın parlaq qələbəsi gələcək illər üçün ölkənin siyasi mənzərəsini formalaşdırmasına zəmin yaratdı. Bu qalibiyyət bir daha dövlətin demokratiya prinsiplərinin dəstəklənməsi, ölkədə inklüziv idarəçiliyin həyata keçirilməsini sübuta yetirdi. Böyük Türkiyə xalqı Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə güclü iqtisadiyyat, möhkəm infrastruktur, yüksək hədəflər, gələcəyə doğru qətiyyətlə irəliləmək, 21 ildir davam edən bu uğur zəncirinə yeni halqalar əlavə etmək niyyətini qəti şəkildə bildirdi. Xalq dövlət başçısının sayəsində son illərdə əldə etdiyi gücün, qüdrətin davamını yaşamaq və bu davamlılığı təkcə Türkiyənin deyil, bütün türk dünyasının da varlığında görmək istədiyini inamla, təntənə ilə bəyan etdi, xalq-iqtidar birliyini nümayiş etdirdi. Çünki demokratik cəmiyyət, hüquqi dövlət, insan haqlarının aliliyi, siyasi plüralizm prinsiplərinin əsas götürüldüyü, dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri sırasında yer alan Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə hərtərəfli inkişaf yolu keçmişdir. Dövlət başçısının həyata keçirdiyi uğurlu daxili və xarici siyasət Türkiyəni iqtisadi cəhətdən inkişaf etdirməklə dünya birliyinin "Böyük iyirmiliyi"ndə yerini müəyyənləşdirmiş, hərbi gücünə, müdafiə sənayesinə görə ABŞ silahlı qüvvələrindən sonra NATO-nun ikinci ölkəsinə çevirmişdir. Müdafiə sahəsində güclü və müstəqil ola bilməyən dövlətlərin gələcəyə inamlı addım atmalarının mümkün olmadığını bəyan edən Rəcəb Tayyib Ərdoğanın bu sahədə sürətli inkişafa nail olunması istiqamətində düşünülmüş siyasəti sayəsində bu gün Türkiyə Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer tutur. Böyük uğurlara imza atan Türkiyə bu gün ölkə həyatının bütün sahələrində, o cümlədən qabaqcıl texnologiyalar sahəsində inkişaf etmiş dövlətlər arasında öz mövqeyini qoruyub saxlayır. Bütün bunlar böyük türk xalqının, qələbəsidir və bu qələbəni xalq böyük şərəflə qeyd etdi.



2023-cü il iyun ayının 3-də Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi keçirildi. Mərasimdə 21 dövlət başçısı, 14 baş nazir, nazirlər və beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən Türk Dövlətləri Təşkilatı, NATO və İslam Əməkdaşlığı Təşkilatının rəhbərləri iştirak etdilər. Növbəti dəfə prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirən Prezident Rəcəb Tayyib Ərdoğan "Türkiyə yüzilliyi"nin başladığını, yeni hökumətlə birlikdə bu istiqamətdə çalışacaqlarını bildirərək dedi: "Gün bir olmaq, bərabər olmaq, min illik qardaşlığımızı daha da möhkəmləndirmək günüdür. Gün övladlarımızın aydın sabahlarına sahib çıxmaq günüdür... Birlikdə "Türkiyə yüzilliyi"nin inşası üçün çiyin-çiyinə çalışmalıyıq".

İnaqurasiya mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı Azərbaycan-Türkiyə dostluğunu, qardaşlığını, müttəfiqliyini bir daha göstərdi və iki qardaş ölkənin birlik, həmrəylik salnaməsinə yeni, parlaq səhifə yazdı.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**